# “Molla Nəsrəddin” və özbək satirik ədəbiyyatı

**Gülbəniz Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: gulbeniz-babayeva@mail.ru
https://orcid.org/0000-0003-4094-4973

**Annotasiya.** Azərbaycan satirik mətbuatının zirvəsi olan “Molla Nəsrəddin” jurnalı 25 illik fəaliyyəti dövründə Yaxın Şərq və Orta Asiya xalqlarının həyatında baş verən ictimai-siyasi və ədəbi-mədəni hadisələri öz səhifələrində geniş işıqlandırmışdır. Jurnal Şərq dünyasında milli azadlıq hərəkatına təkan vermiş, xalqların müstəqillik uğrunda mübarizəsini müdafiə etmiş və onların haqq səsini dünyaya çatdırmışdır. “Molla Nəsrəddin” jurnalı digər türk xalqları ilə yanaşı, Özbəkistanda gedən prosesləri diqqətlə izləmiş və baş vermiş hadisələrə fəal münasibət bildirmişdir. Özbək satirik ədəbiyyatının formalaşmasında “Molla Nəsrəddin” jurnalının və mollanəsrəddinçilərin müstəsna rolu olmuşdur. Xüsusilə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir yaradıcılığının təsiri özbək satirik ədəbiyyatında geniş şəkildə əksini tapmışdır. Məqalədə bütün bu məsələlər diqqət mərkəzində saxlanılır, Cəlil Məmmədquluzadə realizminin gücü və Sabir satiralarının ideya və məzmun zənginliyi konkret faktlar əsasında təhlilə cəlb edilir, özbək ədəbiyyatının tanınmış nümayəndələrinin yaradıcılığına istinad edilir. Sabir yaradıcılığı ilə görkəmli özbək şairi Əczinin satiraları müqayisələr, paralellər əsasında şərh olunur. Tədqiqatda göstərilir ki, “Molla Nəsrəddin” jurnalının və mollanəsrəddinçilərin özbək satirik ədəbiyyatının təşəkkülü, formalaşması və inkişafındakı müstəsna rolu Azərbaycan və özbək ədəbiyyatşünaslarının diqqət mərkəzində olmuşdur.
**Açar sözlər:** “Molla Nəsrəddin” jurnalı, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, tənqidi-realist ədəbiyyat, satirik hekayə, satirik şeir, özbək ədəbiyyatı, S.Əczi, M.Sufizadə, Qafur Qulam

http://dx.doi.org/10.29228/edu.150
**Məqaləyə istinad:** Babayeva G. (2020) *“Molla Nəsrəddin” və özbək satirik ədəbiyyatı.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 184-190
**Məqalə tarixçəsi:** göndərilib – 22.04.2020; qəbul edilib – 29.04.2020

# "Molla Nasraddin" and uzbek satirical literature

**Gulbaniz Babayeva**
Doctor of Philosophy in Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: gulbeniz-babayeva@mail.ru
https://orcid.org/0000-0003-4094-4973

**Abstract.** “Molla Nasreddin”, the pinnacle of Azerbaijan's satirical press, has covered the socio-political, literary and cultural events in the lives of the nations of the Middle East and Central Asia during its 25-year history.The magazine gave impetus to the

national liberation movement in the Eastern world, defended the struggle of nations for independence and conveyed their true voice to the world. "Molla Nasreddin" magazine, along with other Turkic nations, closely followed the processes taking place in Uzbekistan and took an active part in the events. The "Molla Nasreddin" magazine and Mollanasraddin followers had an exceptional role in the formation of Uzbek satirical literature. In particular, the influence of the works of Jalil Mammadguluzadeh and Mirza Alakbar Sabir is widely reflected in Uzbek satirical literature. The article focuses on all these issues, analyzes the power of Jalil Mammadguluzadeh's realism and the richness of ideas and content of Sabir's satires on the basis of concrete facts, refers to the works of well-known representatives of Uzbek literature. It is shown that the exceptional role of the "Molla Nasreddin" magazine and Mollanasraddin followers in the formation, shaping and development of Uzbek satirical literature has been in the focus of attention of Azerbaijani and Uzbek literary critics.
**Keywords:** “Molla Nasraddin” magazine, Jalil Mammadguluzadeh, Mirza Alakbar Sabir, critical-realist literature, satirical story, satirical poem, Uzbek literature, S.Ajzi, M.Sufizadeh, Gafur Gulam

http://dx.doi.org/10.29228/edu.150
**To cite this article:** Babayeva G. (2020) *"Molla Nasraddin" and uzbek satirical literature.* «Comparative Literature Studies», Issue I, pp. 184-190
**Article history:** received – 22.04.2020; accepted – 29.04.2020

## Giriş / *Introduction*

Azərbaycan satirik mətbuatının və XX əsr tənqidi-realist əbəbiyyatın zirvəsini fəth edərək böyük ədəbi məktəb yaradan “Molla Nəsrəddin” jurnalı bir əsrdən artıqdır ki, Yaxın və Orta Şərqdən başlamış bütün Qərb dünyasına qədər geniş arealda şöhrət qazanmışdır. “Molla Nəsrəddin” jurnalının nəşri Şərq dünyasında milli-azadlıq hərəkatına təkan vermiş, xalqların müstəqillik və demokratiya uğrunda mübarizəsini müdafiə etmiş və onların haqq səsini bütün dünyaya çatdırmışdır. İmperialist quvvələrin müstəmləkə siyasətinə qarşı çıxan “Molla Nəsrəddin” jurnalı İran, Türkiyə, İraq, Əfqanıstan, Hindistan kimi ölkələrin həyatında baş verən milli-azadlıq hərəkatına xüsusi diqqət yetirmiş, elmin, maarif və mədəniyyətin inkişafına öz mənəvi dəstəyini əsirgəməmişdir. “Molla Nəsrəddin” jurnalı fəaliyyəti boyunca daim diqqət mərkəzində saxladığı Orta Asiya xalqlarının ictimai-siyasi və ədəbi-mədəni həyatının işıqlandırılmasında böyük rol oynamışdır. Abdulla Qədirinin təbirincə desək, Orta Asiyada Azərbaycan ədəbiyyatını oxumayan, bilməyən sənətkar yoxdur. O, çox haqlı olaraq göstərirdi ki, biz həcvçiliyi “Molla Nəsrəddin”dən öyrənməliyik. Qədirinin “Mən qələm tutmağı ərəblərdən, qələmlə güldürməyi isə “Molla Nəsrəddin”dən öyrənmişəm” fikri jurnalın böyük bir missiyanın daşıyıcısına çevrildiyini göstərən maraqlı faktlardandır.

## Əsas hissə / *Main part*

Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşrə başlayan “Molla Nəsrəddin” jurnalının Tiflisdə 370, Təbrizdə 8, Bakıda isə 363 nömrəsi çapdan çıxmışdır. Ümumilikdə bu satirik mətbuat orqanının 741 nömrəsi işıq üzü görmüşdür. Jurnal dərc olunduğu gündən (7 aprel 1906) 25 illik fəaliyyəti dövründə ardıcıl olaraq öz səhifələrində Şərq xalqlarının, o cümlədən Orta Asiya xalqlarının ictimai-siyasi həyatı ilə bağlı silsilə yazılar vermişdir. Jurnalın ətrafında birləşən böyük bir ədəbi qüvvə – Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əliqulu Qəmküsar, Mirzə Ələkbər Sabir, Əbdür-

rəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əli Razi, Məmməd Səid Ordubadi, Mirzəli Möcüz, Bayraməli Abbaszadə və başqalarının yaratdığı satirik hekayə, satirik felyeton, satirik şeir, pamflet, oçerk, səyahətnamə, teleqraf xəbərləri və s. dərin məzmunlu satirik ədəbi nümunələr jurnalın çoxsaylı oxucuları tərəfindən maraqla qarşılanırdı. Jurnalın rəssamları Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə, Seyidəli Behzad, İsmayıl Axundov, Qəzənfər Xalıqov, Hüseyn Əliyev və başqalarının yüksək sənətkarlıqla yaratdıqları karikaturalar bütün xalqlarda əks-sədaya səbəb olduğu kimi, Özbəkistanda da maraqla qarşılanmış və orada təsviri sənətin, qrafikanın və karikatura janrının inkişafında müstəsna rol oynamışdır. “Molla Nəsrəddin” jurnalının Özbəkistanla sıx bağlılığını göstərən faktlardan biri də satirik məcmuənin vəkilləri və onun yayıldığı şəhərlərin adlarının qeyd olunması ilə bağlıdır. Jurnalın 1917-ci ildə dərc edilən 17-ci nömrəsində oxuculara vəkillər və onların missiyasını həyata keçirən idarə və təşkilatlar haqqında siyahı təqdim olunur: “Səmərqənddə ”Zərəfşan” kitabxanası, Buxarada “Mərifət” şirkəti –Yaqubbayov və Nurcan İslambayov, Xokandda “Qeyrət” şirkəti, Daşkənddə Köhnə şəhərdə, “Məktəb” mağazasında Abdullah Ovlilani” [1]. “Molla Nəsrəddin”də əksini tapan bu məlumatdan da aydın olur ki, jurnal Özbəkistanda və onun ayrı-ayrı şəhərlərində geniş yayılmış və təbliğ olunmuşdur.

Özbək yazıçı və şairlərinin jurnalın nəşr olunduğu Tiflis, Bakı şəhərlərinə gəlməsi, Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabirlə yaxından dostluğu iki xalqın satirik ədəbiyyatı və mətbuatı arasında bir körpüyə çevrilmişdir. Sonralar M.Ə.Sabirin Şərq ölkələrinə, İranın və Orta Asiyanın Xorasan, Səbzvar, Nişapur, Mərv, Aşqabad, Buxara, Səmərqənd kimi mədəniyyət mərkəzlərinə səyahətə çıxması və tanınmış özbək ziyalıları, şair və yazıçıları – M.Sufizadə, Raci, Şükuri, Əczi ilə görüşləri bu əlaqələri daha da möhkəmləndirmiş və Sabirin dərin müşahidələr əsasında yeni-yeni əsərlər yazmasına təminat yaratmışdır.

“Molla Nəsrəddin” jurnalının ümumbəşəri əhəmiyyətindən bəhs edən akademik İsa Həbibbəyli yazır: “Öz ətrafında mollanəsrəddinçi şairləri və yazıçıları birləşdirən “Molla Nəsrəddin” jurnalı nəinki ölkədə, Qafqazda, Türkiyədə, İranda, Orta Asiyada, Volqaboyunda... tənqidi realist və satirik ədəbiyyatın bayrağını ucaltmış, həm bu tipli ədəbiyyatın konsepsiyasını irəli sürmüş, həm də konkret ədəbi nümunələrini xalqa çatdırmışdı... Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində “Molla Nəsrəddin” jurnalı qədər geniş universal yaradıcılıq istiqamətlərini və böyük yaradıcı qüvvələri öz ətrafında cəmləşdirən ikinci bir uzunömürlü mətbuat orqanı olmamışdır. “Molla Nəsrəddin” Azərbaycanın, geniş mənada türk-müsəlman dünyasının ilk satirik və karikaturalı jurnalı kimi bədii yaradıcılığın və təsviri sənətin inkişafına xidmət edən yeni nəsil sənətkarlar ordusu meydana çıxarmışdır” [2]. Şərq aləmində ilk rəngli karikaturalı satirik jurnal kimi şöhrət qazanan “Molla Nəsrəddin” Orta Asiyada, xüsusilə Özbəkistanda da sevilə-sevilə oxunmuş və orada satirik ədəbiyyatın və mətbuatın inkişafına güclü təkan vermişdir. Jurnal öz səhifələrində özbək xalqının ictimai-siyasi və sosial həyatının, onun çoxəsrlik ədəbiyyatının və milli mətbuatının işıqlandırılmasına geniş yer vermişdir. Qarşılıqlı olaraq özbək ədəbiyyatı və mətbuatında “Molla Nəsrəddin” jurnalının ideoloji mübarizə üsulu, aydın tendensiyası, satirik üslubu, sadə və anlaşıqlı dili təqdir edilmiş və mətbuatda, ayrı-ayrı tədqiqatlarda, icmallarda işıqlandırılmışdır. Özbəkistan satirik mətbuatı “Molla Nəsrəddin” jurnalının geniş fəaliyyətini, onun zülm və istibdada, fanatizmə, cəhalətə qarşı kəskin mübarizəsini daim izləmiş və bəzən jurnalda dərc olunmuş yazıları və karikaturaları olduğu kimi, bəzən isə onlara nəzirə, parodiya və perifrazlar edərək öz səhifələrində çap etmişdir.

Şərq xalqlarının tarixində ilk satirik mətbuat orqanı kimi ədəbi məktəb yaradan “Molla Nəsrəddin” jurnalı Orta Asiya xalqlarının həyatında böyük intibaha və milli dirçəlişə səbəb olmuş, satirik mətbuatın yaranmasına zəmin hazırlamışdır. “Muştum” jurnalı yazır: “Molla Nəsrəddin”! Sən İrandan Şərqi Türküstana qədər, Azərbaycandan Tatarıstana, Başqırdıstandan, Qazaxıstandan Beynən – nehreynə qədər, hətta Krımdan Dağıstana qədər öz əlini uzatdın və qafil müsəlmanları yuxudan oyatdın” [3].

Əsrlərcə davam edən Azərbaycan–Özbəkistan ədəbi əlaqələri XX əsrin əvvəllərində yaranan və formalaşan “Molla Nəsrəddin” satirik jurnalının timsalında yeni mərhələyə qədəm qoydu. Jurnal zən-

gin və çoxşaxəli janrları, qeyri-adi üslubu, orijinallığı və bənzərsiz forma-struktur özəlliyi ilə bütün Şərq dünyasında əks-sədaya səbəb oldu. Mollanəsrəddinçilərin, xüsusilə də Cəlil Məmmədquluzadə və Sabir yaradıcılığına özbək xalqının və onun ziyalılarının hədsiz maraq göstərməsinin səbəbi onların jurnalın səhifələrində dərc etdirdikləri nəsr və nəzm nümunələrində hər iki xalq üçün ortaq olan taleyüklü problemlərin qabardılması və satirik bir dillə geniş oxucu auditoriyasına çatdırılması idi. Görkəmli özbək alimi, professor Həmidulla Baltabayev Cəlil Məmmədquluzadə irsinə yüksək qiymət vermiş, realist ədibin "Poçt qutusu" kitabının özbək dilinə tərcüməsini doğma xalqına böyük bir töhfə kimi dəyərləndirmişdir: "Biz böyük bir türk ağacının yarpaqları, meyvələriyik. Bu ağacın kökü birdir, o, bir kökdən qidalanır. Müasir insanlar öz kökünü, tarixini bilmək istəyir. Bu tarix istər azərbaycanlı olsun, istər özbək olsun, istər türk, qazax – hansı türk olur olsun, hamısı üçün bir tarixdir... Gələcəyə yaxınlaşmaq üçün mütləq keçmişi bilmək, keçmişlə bağlı olmaq lazımdır. Bu baxımdan "Poçt qutusu" olduqca əhəmiyyətlidir" [4].

Hər iki xalqın satirik ədəbiyyatındakı əlaqələri diqqət mərkəzində saxlayan görkəmli özbək ədəbiyyatşünası, akademik Vahid Abdullayev "Sabir və Əczi" məqaləsində Azərbaycan satirik poeziyasının zirvəsində qərarlaşan mollanəsrəddinçi şair Mirzə Ələkbər Sabirlə özbək şairi Səidəhməd Siddiqi Əczi yaradıcılığını müqayisələr, paralellər əsasında tədqiqata cəlb edir. Azərbaycan satiriki M.Ə.Sabirin Əczi yaradıcılığına təsirini konkret nümunələr əsasında şərh edir. Sabir satiralarının mövzu və ideya qaynaqlarını, dərin məzmunu, sənətkarlıq məharətini yüksək qiymətləndirərək onun özbək satirik ədəbiyyatı, mətbuatı və Əczi yaradıcılığı üçün zəngin bir mənbə olduğunu vurğulayır. V.Abdullayev Sabirin "Molla Nəsrəddin" jurnalındakı fəaliyyətinə diqqət çəkərək göstərir ki, Əczi Sabirin jurnalda dərc edilmiş bir sıra satirik şeirlərinə nəzirələr yazmış, şairin vətən, millət, azadlıq ideallarının Özbəkistanda müdafiəçisi kimi çıxış etmisdir. Şübhəsiz ki, Sabir ruhunun daşıyıcısı kimi çıxış edən Əczinin mollanəsrəddinçi şairin yaradıcılığına müraciəti təsadüfi deyildir. Çünki iki xalqı birləşdirən ümumi problemlər bu sənətkarları ruhən və mənən yaxınlaşdırmışdır. Əczinin Sabirin 1907-ci ildə qələmə aldığı "Bimərhəmət əyanlarına şükr, xudaya!" misralı şeirinə yazdığı parodiyada Azərbaycan satira məktəbinin ənənələri, dil, üslub və ifadə tərzi aydın şəkildə görünməkdədir:

*Ammamalı şaytonlarınqa şükr, xudaya!*
*Bu fokidi-imanlarınqa şükr, xudaya!*
*Səd çəkməyə urfan yoluna amr eləmişlər,*
*Bu fikirli sultanlarına şükr, xudaya!*
*Öz keyfinə dünyanın təsəllüt edəcəklər,*
*Qazilərinə, xanlarına şükr, xudaya!*
*Çayxanalarda məktəb açıblar ramazanda*
*Ətfali-qəzəlxanlarına şükr, xudaya!.. [5].*

V.Abdullayev araşdırmasında qeyd edir ki, M.Ə Sabirin 1911-ci ildə "Molla Nəsrəddin" jurnalında çap olunmuş "Vaqieyi-yubileykaranə" əsərinin təsiri ilə Əczi 1912-ci ildə "Yuxu" adlı şeirini yazmışdır. Tədqiqatçı iki satirik sənətkarın yaradıcılığı üçün səciyyəvi olan cəhətləri şərh edərək belə bir qənaətə gəlir: "Təkcə səmərqəndli Seyid Əhməd Əczi deyil, özbək və tacik xalqlarının inqilabçı şairlərindən Sədrəddin Ayni, Həmzə Həkimzadə və səmərqəndli Raci kimi yazıçılar da Sabir yaradıcılığına böyük hörmətlə yanaşmış, onun əsərlərindən ilham almış, Sabir şeirləri ilə həmahəng əsərlər yaratmışlar" [5].

Təsadüfi deyildir ki, Əczini "Özbək satirasının Sabiri" adlandırmışlar. Şairin Sabirin "Ey pul", "Əkinçi" , "Uçitellər" satiralarına yazdığı "Çervon", "Əkin yerlərinin dərdü-həsrəti", "Ziyalılar" şeirlərinə nəzirə və iqtibaslarında Sabir satiraları üçün xarakterik olan sətiraltı eyham, tipin öz dili ilə özünü ifşa üslubu və forma-sturuktur bənzərliyi Əczinin Sabir sənətindən yaradıcılıqla bəhrələndiyini göstərən maraqlı məqamlardır.

XX əsr Azərbaycan satirik ədəbiyyatının yaradıcıları haqqında məlumatlar Özbəkistan ədəbi-ictimai fikrində tanınmış və geniş yayılmışdır. Tədqiqatçı Toxtasın Cəlalov “Sabirin müasirləri arasında” sərlövhəli məqaləsində Heyrəti, Ərəzi, Hacı Alim Qabulov (Həzlkeş) kimi özbək şairlərinin “Molla Nəsrəddin” ədəbi məktəbinin yaradıcılarından, xüsusilə M.Ə.Sabir satiralarından necə bəhrələndiklərini diqqət mərkəzində saxlayır və şahidi olduğu bir maraqlı məsələni – M.Ə.Sabirin “Hop-hopnamə”si oxunarkən özbək şairlərinin heyranlıqla bu satirik şeirlərin ecazkar gücü qarşısında təsirləndiklərini göz önündə canlandırır: “... Bundan sonra Ərəzi özünün Sabir təsirində yazdığı “Pul” rədifli şeirini oxudu. Bu şeir 1916-cı ildə yazılmışdı. Sabirin özbək şeirinə təsirini görmək üçün bu şeir çox səciyyəvidir. Ərəzi, Heyrəti və Həzlkeş Sabir yaradıcılığı ilə hələ “Molla Nəsrəd-din” məcmuəsindən tanış imişlər. “Molla Nəsrəddin” məcmuəsi Fərqanə ziyalıları arasında çox geniş yayılmışdır. Yaradıcılığının mühüm hissəsi satirik şeirlərdən ibarət olan Həzlkeş Sabiri özünün ustadı hesab edirdi. Ərəzi və Heyrəti də satirik şeirlərində Sabirdən çox öyrənib ona nəzirələr yazmışdılar... Söhbətimiz yenə Sabirdən idi.

Heyrəti:

- Sabir Azərbaycan xalqının gözüdür, – dedi.

Ərəzi isə bu fikri tamamladı:

- Həm də çox uzaqgörən gözüdür. O, Xəzər dənizinin uzaq sahillərindən Türküstan torpağındakı ictimai xəstəlikləri də görürdü” [6]. Doğrudan da, Sabirin və mollanəsrəddinçilərin məqsədi, nəinki Şərq xalqlarını, türk dünyasını, eləcə də bütövlükdə zülm, istismar məngənəsində əzilən və boğulan bütün azadlıqsevər insanları, bəşəriyyəti azad və xoşbəxt görmək idi.

Azərbaycan və Özbəkistan satirik ədəbiyyatının qarşılıqlı əlaqəsi və təsir dairəsinin araşdırılması “Molla Nəsrəddin” jurnalı nəşrə başladığı illərdən çağdaş dövrümüzə qədər davam etməkdədir. Bu proses zaman-zaman araşdırılmış və tədqiqat predmetinə çevrilmişdir. Keçən əsrin 60-cı illərində məşhur özbək şairi Qafur Qulam Mirzə Ələkbər Sabir poeziyasının onun yaradıcılığında oynadığı müstəsna rolundan bəhs edərək yazırdı: “Mən yeni-yeni yazmağa başladığım zamanlarda əlimə M.Ə.Sabirin “Hophopnamə”si düşdü. Onu bir neçə dəfə oxudum. Bu əsər mənə böyük təsir bağışladı. Bundan sonra mən də Sabir kimi... gizli imzalar ilə satirik şeirlər yazmağa başladım” [7].

Mirzə Ələkbər Sabir satiralarının özbək ədəbiyyatına və XX əsr satirik mətbuatına təsiri getdikcə geniş miqyas almış, mübaliğəsiz demək olar ki, bütövlükdə özbək satirik poeziyasının qanına və canına hopmuşdur. Tanınmış özbək şairi Qeyrəti də M.Ə.Sabirə ithaf etdiyi “Onun təsiri ilə” adlı məqaləsində bu önəmli məsələni faktlar əsasında şərh edərək yazır: “... Azərbaycan ədəbiyyatı tarixində yeni bir ədəbi məktəb yaradan Sabir yaradıcılığı bizə, qonşu respublika xalqlarının ədəbi yaradıcılığına da qüvvətli təsir göstərmişdir. Mən cavan vaxtlarımda Bakıdakı gündəlik mətbuat səhifələrində Sabir əsərlərinin təsiri ilə bir neçə şeir çap etdirmişəm. Bu şeirlər 1927-ci ildə “Maarif və mədəniyyət”, “Komsomol” məcmuələrində dərc olunmuşdur. Özbəkistanda Sabir yaradıcılığının təsiri ilə əsərlər yazıldığı inqilabdan əvvəlki mətbuat səhifələrində, sonra da satirik “Muştum” jurnalında aydın görünməkdədir. “Muştum ətrafında toplaşan şairlərdən Q.Qulam, S.Abdulla, Xurşid, Həzlkeş, Fələngi və başqaları Sabirin “Nam alırız biz” və başqa bir çox şeirlərinə, bəhri-təvillərinə oxşatmalar yazmışlar. Bununla belə, Sabirin alovlu satirası, atəşin şeirləri özbək sovet ədəbiyyatının tərəqqisi və inkişafına böyük xidmət etmişdir” [8].

“Molla Nəsrəddin” jurnalının və Cəlil Məmmədquluzadə yaradıcılığının Özbəkistanda tanınması, böyük şöhrət qazanması, xalq tərəfindən rəğbətlə qarşılanması və sevilməsindən bəhs edən Həmidulla Baltabayev “Kaspi” qəzetinə müsahibəsində deyir: “Molla Nəsrəddin” jurnalı bütün türk elində ilk satirik jurnal olaraq tarixə düşüb. Bizdə də ona oxşar “Muştum” (“Yumruq”) adlı satirik jurnal vardı, o, bu gün də nəşr olunur. Və biz onu “Molla Nəsrəddin”in qardaşı hesab edirik. Sizin “Molla Nəsrəddin” jurnalınız sayəsində Cəlil Məmmədquluzadə Özbəkistanda yaxşı tanınır və çox sevilir” [4].

Azərbaycan satira məktəbinin özbək satirik ədəbiyyatına böyük təsiri olduğu kimi, satirik mətbuatın da yaranmasına və formalaşmasına güclü təsir göstərmişdir. Belə ki, 1917-ci ildə Özbəkistan-

da nəşrə başlayan "Çayan" satirik jurnalında "Molla Nəsrəddin" ənənələri uğurla davam etdirilmişdir. Dövrün ab-havasını öz səhifələrində əks etdirən "Çayan" jurnalı milli istiqlal ideyalarını təbliğ edir, "Yaşasın xalq cümhuriyyəti!", "Yaşasın milli və mədəni müxtariyyət!" şüarlarını yaradıcılıq kredosuna çevirərək "Molla Nəsrəddin"in layiqli davamçısı kimi fəaliyyət göstərmişdir.

Azərbaycan və özbək satirik ədəbiyyatının qarşılıqlı şəkildə araşdırılması həmişə diqqət mərkəzində olmuşdur. Bu baxımdan Nazim Axundov, İsa Həbibbəyli, Akif Bağırov, Qulamhüseyn Əliyev, Yaşar Qasımov və başqalarının tədqiqat əsərlərini xüsusi qeyd etmək olar. Son onilliklərdə filologiya elmləri doktoru Almaz Ülvi Binnətovanın apardığı çoxşaxəli araşdırmaların bir istiqaməti də "Molla Nəsrəddin" jurnalının özbək satirik ədəbiyyatına təsiri ilə bağlıdır. O, hər iki xalqın satirik ədəbiyyatının tədqiqinin əsas parametrlərini göstərərək yazır: "XX əsr özbək satirası ilə Mirzə Cəlilin, Sabirin əlaqəsini üç görkəmli şairin – S.Əczi, M.Sufizadə və H.H.Niyazinin yaradıcılıqları ətrafında daha geniş, əhatəli öyrənmək mümkündür. Hər üç sənətkarın yaradıcılığı "Molla Nəsrəddin" məktəbindən rişələnmişdir. "Molla Nəsrəddin" dərc olunduğu zamanda, sonralar da Şərq satira məktəbinin ustadı sayılmışdır. Başqa sözlə desək, əldən-ələ gəzən bu mətbu orqan XX əsr Şərqində əzəmətlə ucalan böyük bir satira ehramının özülünü təşkil edir" [9, s.95].

## Nəticə / *Conclusion*

XX əsr Azərbaycan satirik məktəbinin yaradıcısı "Molla Nəsrəddin" jurnalı Orta Asiya xalqlarının bir ideya ətrafında birləşməsində, realist satirik ədəbiyyatın və mətbuatın inkişafında misilsiz rol oynamışdır.

Jurnal türk dünyasında baş verən hadisələrə və qlobal problemlərə fəal münasibət bildirmiş, ictimai haqsızlığa, ədalətsizliyə, geriliyə, cəhalətə qarşı barışmaz mövqedə dayanmış, xalqların azadlığını, müstəqilliyini, demokratik hüquqlarını müdafiəyə qalxmış, səsini tərəqqipərvər bəşəriyyətin haqq səsinə qatmışdır.

## Ədəbiyyat / *References*


1. "Molla Nəsrəddin" jurnalı, 1917, № 17.
2. Həbibbəyli İsa. Milli istiqlal carçısı. "Azərbaycan" qəzeti, 22 fevral 2019.
3. "Muştum" jurnalı. Daşkənd, 5 iyul 1924.
4. "Kaspi" qəzeti, 24 noyabr 2019.
5. Abdullayev V.A. Sabir və Əczi. "Kommunist" qəzeti, 29 may 1962.
6. Cəlalov Toxtasın. Sabirin müasirləri arasında. "Ədəbiyyat və incəsənət" qəzeti, 29 may 1962.
7. "Kommunist" qəzeti, 29 may 1962.
8. Qeyrəti. Onun təsiri ilə. "Ədəbiyyat və incəsənət" qəzeti, 12 may 1962.
9. Binnətova Almaz Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri. Bakı, 2008.

# «Молла Насреддин» и узбекская сатирическая литература

**Гулбаниз Бабаева**
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви.
Азербайджан.
E-mail: gulbeniz-babayeva@mail.ru

**Резюме.** «Молла Насреддин», вершина азербайджанской сатирической прессы, освещал социально-политические, литературные и культурные события в жизни народов Ближнего Востока и Центральной Азии за свою 25-летнюю историю. Журнал дал толчок национально-освободительному движению в восточном мире, защитил борьбу народов за независимость и передал их истинный голос миру. Журнал «Молла Насреддин» наряду с другими тюркскими народами внимательно следил за процессами, происходящими в Узбекистане, и принимал активное участие в этих событиях. Журнал «Молла Насреддин» и молланасреддинцы сыграли исключительную роль в формировании узбекской сатирической литературы. В частности, влияние произведений Джалила Мамедгулузаде и Мирзы Алекпера Сабира широко отражено в узбекской сатирической литературе. Все эти вопросы находятся в центре внимания статьи, сила реализма Джалила Мамедгулузаде и богатство идей и содержание сатиры Сабира анализируются на основе конкретных фактов, делаются ссылки на произведения известных представителей узбекской литературы. Произведения Сабира и сатиры известного узбекского поэта С.Айзи интерпретируются на основе сравнений и параллелей. Исследование показывает, что исключительная роль журнала «Молла Насреддин» и молланасраддинцев в становлении и развитии узбекской сатирической литературы была в центре внимания азербайджанских и узбекских литературоведов.
**Ключевые слова:** журнал «Молла Насраддин», Джалил Мамедгулузаде, Мирза Алекпер Сабир, литература критического реализма, сатирический рассказ, сатирическая поэзия, узбекская литература, С.Аджзи, М.Суфизаде, Гафур Гулам